Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında respublika turnirinin proqramına daxil olan atletika idman növü üzrə final yarışı keçirilib.

Respublika Olimpiya Mərkəzində təşkil olunan yarışda hər zonadan I və II yer üzrə final mərhələsinə vəsiqə qazanan 12 komanda - Bərdə rayonu, Gəncə şəhəri, Balakən rayonu, Oğuz rayonu, Nərimanov rayonu, Xətai rayonu, Masallı rayonu, Salyan rayonu, Ucar rayonu, Sabirabad rayonu, Quba rayonu, Şabran rayonun məktəbliləri mübarizə aparıb.

Yarışda I yerə Bərdə rayonu, II yerə Balakən rayonu, III yerə Gəncə şəhərinin komandası layiq görülüb.

Olimpiya sistemi üzrə 6 zonada keçirilən turnirdə 4 idman növü üzrə ümumilikdə respublikanın bütün rayon və şəhərindən 2000-dən çox məktəbli iştirak edib.

Təhsil, Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyasının təşkilatçılığı ilə 2021-ci ilin may-iyun aylarında keçirilən yarışlarda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən bütün rayon və şəhər ümumi təhsil müəssisələrinin şagirdləri mini futbol (13-14 yaş), atletika (13-14 yaş), voleybol (oğlanlar, 14-15 yaş), basketbol (oğlanlar,14-15 yaş) idman növləri üzrə iştirak edir.

Qeyd edək ki, turnirin keçirilməsində məqsəd şəhidlərimizin xatirəsini əbədiləşdirmək, onların xatirəsini yad etmək, yeniyetmələr arasında vətənpərvərlik hissini gücləndirmək, şagirdləri sağlam həyat tərzinə istiqamətləndirmək, onların asudə vaxtının səmərəli təşkili, idmana olan marağının artırılması, ümumtəhsil məktəblərinin idman sahəsində sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsindən ibarətdir.

Turnir xüsusi karantin rejimi qaydalarına uyğun olaraq həyata keçirilir.